# Akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş respublika konfransı

**Bakı Dövlət Universitetində (BDU) akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş respublika konfransı keçirilib.**

BDU-nun rektoru Elçin Babayev Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında xidmətlərindən bəhs edib. Rektor qeyd edib ki, bu il Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan, oftalmologiya sahəsi üzrə ilk qadın akademik, tibb elmləri doktoru, professor, gözəl insan, fədakar ana Zərifə Əliyevanın 100 illik yubileyidir. Görkəmli alim vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar aparıb.






Eyni zamanda, "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Zərifə xanım Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına da böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktorunun I müavini Hicran Namazova və digər çıxış edənlər akademik Zərifə Əliyevanın zəngin mənəvi keyfiyyətləri, oftalmologiya elminin inkişafındakı xidmətlərini diqqətə çatdırıblar.

Sonra akademik Zərifə Əliyevanın həyat yolu və elmi fəaliyyətindən bəhs edən video nümayiş olunub.

Sonda BDU-nun akademik Zərifə Əliyeva adına məqsədli təqaüdünün qalibi elan olunub.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

*"Xalq qəzeti"*